# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının Zəfər bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Zəfər bayramı münasibətilə Türkiyə xalqını və dövlətini təbrik edib. Azərbaycan parlamentinin spikeri bununla bağlı özünün sosial şəbəkə hesablarında paylaşım edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, paylaşımda deyilir: "Qurtuluş savaşında qazandığı zəfər Türkiyənin



zəngin dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biri kimi qardaş Türkiyə xalqının milli birliyini və mübarizə əzmini nümayiş etdirmişdir".

Spiker Sahibə Qafarova bayram münasibətilə qardaş Türkiyə xalqına əmin-amanlıq və firavanlıq arzulayıb.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 31 avqust (№184).- S.2.